# Vədə sadiq Prezident

*Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir.*

*Prezident İlham Əliyevin 2003-cü ildə keçirilmiş andiçmə mərasimindəki nitqindən*



2003-cü il oktyaibrın 1-də ümummilli liderin layiqli siyasi varisi kimi cəmiyyətə təqdim etdiyi cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu əməli fəaliyyəti ilə təsdiqlədi. Dünya şöhrətli siyasi xadim Heydər Əliyev əbəs yerə deməmişdir: "...İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək".

Ümummilli liderin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən və yeni dövrün ruhuna uyğun zənginləşdirən Prezident İlham Əliyevin 17 illik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı lider olduğu bir daha təsdiqini tapır. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. Onunla hesablaşırlar, ona hörmət və ehtiramla yanaşırlar.

## Hər bir azərbaycanlının Prezidenti

Hələ illər öncə "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" – deyərək başladığı müqəddəs missiyanı xalqa arxalanaraq davam etdirmək Prezident İlham Əliyevin müqəddəs amalına çevrildi. 2003-cü ildə "Zəngin və qüdrətli Azərbaycan uğrunda" çağırışı ilə milyonları öz ətrafında toplayan ölkə başçısının uğurlu daxili və xarici siyasəti ilə Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesi müvəffəqiyyətlə həyata keçirilməyə başlandı. Hər şey "Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın qəbulundan sonra başlandı. Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni həyatında, xarici siyasətində yeni mərhələyə keçidin əsası qoyuldu. Ökədə yeni iş yerlərinin yaradılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ölkəmizin beynəlxalq aləmə inteqrasiyasnın sürətləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində mühüm əhəmiyyətli tədbirlərin həyata keşirilməsi, azad sözün, müstəqil mətbuatın inkişafının prioriet vəzifəyə çevrilməsi Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun yüksəldilməsində mühüm rol oynaydı.

Dövlət başçımızın 17 illik prezidentlik dövrünün əsas məqamlarını, bu müddətdə görülən işləri və həyata keçirilən layihələri nəzərdən keçirdikcə çoxşaxəli fəaliyyət, cəsarət və qətiyyət tələb edən köklü islahatlar, müdrik daxili və xarici siyasətin Azərbaycana qazandırdığı uğurlar bir daha göz önündə canlanır. Kimliyindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının həyat səviyyəsinin daha da yaxşılaşdırılması, aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi, doğma ata- baba torpaqlarından didərgin salınmış soydaşlarımızın mənzil- məişət şəraitinin yaxşılaşdırılması dövlət başçısına olan inamı getdikcə möhkəmləndirdi. Hələ 2003-cü ildə keçirilən prezident seçkiləri ərəfəsində bəyan etmişdi ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm.

Bu gün Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasında olmasının əsas səbəbi məhz Prezident İlham Əliyevin verdiyi vədlərə sadiqliyinin baiz nümunəsidir.

Xalqımızın Prezident İlham Əliyevə məhəbbətinin, inamının əsasında dövlətimizin başçısının liderlik keyfiyyətləri dayanır. Möhtərəm Prezidentimizin xidmətləri ilə Azərbaycanda demokratik prosesi sürətləndirən siyasi islahatlar dönməz xarakter aldı. Xalqımıza məxsus olan milli-mənəvi dəyərlər əsrlərdən keçərək, bu günümüzə qədər gəlib çatıb. Onu xalqa sevdirən ən mühüm xüsusiyyəti əsl dövlət başçısına xas qətiyyət, atdığı hər bir addımda milli maraqları əsas tutmasıdır. Prezident İlham Əliyevin verdiyi hər bir qərar Azərbaycan dövlətinin milli maraqlarına hesablanır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir. Bu illər ərzində qarşıya qoyulan mühüm vəzifələrdən biri də yenilməz ordunun formalaşdırılmasıdır.

## "Bax, belə ordu yaratmışıq biz!"

Prezident İlham Əliyevin ordu quruculuğunu 17 illik fəaliyyətinin prioritetinə çevirməsi bu gün dünya ictimaiyyəti tərəfindən də yüksək dəyərləndirilir. Bu il sentyabrın 27- dən başlayaraq, təcavüzkar Ermənistanın genişmiqyaslı təxribatlarının qarşısının alınmasında müzəffər ordumuzun elə ilk əks-hücumu nəticəsində "güclü Ermənistan ordusu" param-parça oldu. Bir-birinin ardınca gələn qələbə müjdələri işğalçı ölkəni şoka saldı. Bir də onda ayıldı ki, artıq Azərbaycan Ordusu Şuşanı da işğaldan azad edib. Ay yarım ərzində rəşadətli ordumuz 300-ə yaxın yaşayış məntəqəmizi düşməndən azad etdi. Prezident İlham Əliyev noyabrın 2-də İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində də Azərbaycanın güclü, qüvvətli ordusu olduğunu diqqətə çatdırdı: "Mən dəfələrlə demişəm ki, bizim 100 min döyüşçüsü olan ordumuz var, nizami ordu. Tam səfərbərlik elan etsək, bundan bir neçə dəfə çox adam səfərbər edə bilərik. Bizim müasir silahlarımız var. Mükəmməl texnologiyamız var və bizim çox yüksək döyüş ruhumuz var".

Dövlətimizin başçısı noyabrın 8-də Şuşanın işğaldan azad edildiyi gün xalqa müraciətində bir daha vurğuladı ki, 17 illik prezidentlik fəaliyyətinin əsasını ordu quruculuğunun möhkəmləndirilməsi təşkil edib: "Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda, mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar."

Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması gənc nəslin hərbi vətənpərvərlik ruhunda yetişməsində mühüm rol oynadı. Bütün hərbi şəhərciklərin, hərbi bazalarımızın ən yüksək standartlar səviyyəsində yenidən qurulması, ilk növbədə, hərbçilərimizin döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətində mühüm əhəmiyyətli tədbirlərin keçirilməsi bugünkü qələbəmiz üçün zəmin yaratdı. Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlarda nümayiş etdrirlən ən müasir silah – sursat, həm düşmənlərimizə, həm də dünyaya ordumuzun gücünü göstərdi.

Dövlətimizin başçısı xalqa müraciətində bir daha vurğuladı ki, döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir: "Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Bax, belə ordu yaratmışıq biz!"

*17 il əvvəl deyilən bu sözlərə, bəlkə də, şübhə ilə yanaşanlar da var idi. Xarici havadarlarına bel bağlayan təcavüzkar ölkənin rəhbərliyi "böyük Ermənistan" dövləti yaratmaq istəyi ilə daha çox ərazimizi işğal etmək iddiasında idi. Axı, həmin dövrdə özünü qalib kimi aparırdı. Bir tərəfdən də dünya ictimaiyyətini öz yalanlarına inandıra bilməsi, erməni lobbisinin güclü təsirə malik olması, bununla yanaşı, dünyada baş alıb gedən ikili standart erməniləri daha da şirnikləndirirdi. Ancaq unudurdular ki, bu qəti mövqeyi ortaya qoyan ulu öndər Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi Prezident İlham Əliyev idi. Müasir, müstəqil Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək peşəkar lider də yetişdirmişdi. Bu da son. 17 il əvvəl deyilmiş sözlər bu gün həqiqətə çevrilib. Sentyabrın 27-dən başlanan müharibə noyabrın 9-da Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı.*




2018- ci il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Azadlıq meydanında keçirilən hərbi paradda dövlətimizin başçıs 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağının qaldırıldığını və bunun çox böyük mənəvi əhəmiyyəti olduğunu bidirdi . Həmin o bayraqların məhz Azadlıq meydanında nümayiş etdiriləcəyini bildirdi. Dedi ki, bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Dövlətimizin başçısı həmin hərbi paradda xalqa daha bir vəd verdi: "Gün gələcək, işğaldan azad olunmuş torpaqlarda qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

## Qələbədən – Qələbəyə

Dövlət başçımızın 17 illik fəaliyyəti dövründə xalqımız verilən bütün vədlərin layiqincə yerinə yetirildiyinin şahididir. Bütün bunlar xalqın dövlət başçısına olan inamını daha da möhkəmləndirib və hər bir kəs Prezidentin ətrafında yumruq kimi birləşib. Dövlət başçısının dediyi dəmir yumruq kimi. Artıq ölkəmizdə iqtidar-müxalifət birliyi də sıx tellərlə bağlanıb. Hətta ən radikal müxalifət nümayəndələri də hər gün eşidilən qələbə sədalarından, xüsusilə, Şuşada Azərbaycan bayrağının dalğalanmasından sonra sevincini gizlədə bilmir və Ali Baş Komandana səmimi təbriklər ünvanlayır, onun ətrafında birləşdiyini bəyan edirlər. Bugünlərdə 50 siyasi partiya rəhbərinin bu barədə birgə bəyanat qəbul etməsi də bu həmrəylikdən, dövlət başçısına olan inam və etimaddan xəbər veir.

Dövlətimizin başçısı torpaqlarımızın düşməndən azad ediləcəyi barədə 17 il əvvəl andiçmə zamanı verdiyi vədə sadiqliyini nümayiş etdirir. Bunu xalqa müraciətində bir daha xatırlatdı: "...Bunu hamı bilsin – düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik".

Bəli, iki gündür ki, Azərbaycan, dünya azərbaycanlıları qələbə sevincini yaşayır. Bir-birinin ardınca verilən qələbə xəbərləri bizi xoşbəxt gələcəyə aparır. İyirmi səkkiz il yarım işğal altında qalan Qarabağın vuran ürəyi olan əzəmətli Şuşanın düşməndən azad edilməsi qələbələrimizin üstünə daha bir şanlı qələbə gətirdi. Bu qələbə 2020-ci il noyabrın 8-ni Azərbaycan tarixinə əbədi həkk etdi, silinməz günə çevirdi. Bir gün sonra daha bir tarixi gün yaşadıq – noyabrın 9-da Ermənistan diz çökdü, təslim oldu. Bu tarixi qələbələr döyüş meydanında qazanıldı. Bu gün bizim şanlı qələbəmizin, zəfərimizin günüdür, həm də dövlət başçımızn verdiyi vədə sadiqlyini əbədiyyətə çevirən gündür. "Münqişənin hərbi yolla həlli yoxdur" – deyənlərə, nüfuzlu beynəlxalq təşkilatlara bir daha aydın oldu ki, onlar yanlış fikirdə olublar. Prezident, Ali Baş Komandan İlham Əliyev belə düşünənlərə, o cümlədən dünya ictimaiyyətinə, bu sözlərlə işğalçı Ermənistana staus- kvonun ömrünü uzatmağa şəratit yaradanlara sübut etdi ki, münaqişənin hərbi yolla həlli var. Buyurun, bu da sübut.

"Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam".

Bu, Prezident İlham Əliyevin verdiyi vədlərə sədaqətinin daha bir nümunəsidir.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*